UOT 159.9:37.015.3

**Pərvin Zakir qızı Əliyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi,*
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*

*https://orcid.org/0000-0002-3196-9020*
*https://doi.org/10.69682/arti.2025.92(5).260-263*

# YENİYETMƏLƏRİN PSİXOLOJİ DİNAMİKASI KONTEKSTİNDƏ MİLLİ XARAKTER VƏ ASSOSİAL DAVRANIŞLARIN QARŞILIQLI TƏSİRİ

**Parvin Zakir Alieva**
*lecturer at Azerbaijan State Pedaqogical University,*
*doctorial student in the program of doctor of philosophy*

# THE INTERRELATION BETWEEN NATIONAL CHARACTER AND ANTISOCIAL BEHAVIOR IN THE CONTEXT OF ADOLESCENTS' PSYCHOLOGICAL DYNAMICS

**Парвин Закир гызы Алиева**
*преподаватель Азербайджанского Государственного Педагогического Университета,*
*докторант по программе доктора философии*

# ВЗАИМНОЕ ВЛИЯНИЕ НАЦИОНАЛЬНОГО ХАРАКТЕРА И АСОЦИАЛЬНОГО ПОВЕДЕНИЯ В КОНТЕКСТЕ ПСИХОЛОГИЧЕСКОЙ ДИНАМИКИ ПОДРОСТКОВ

**Xülasə.** Bu məqalədə yeniyetməlik dövrünün psixoloji dinamikası fonunda milli xarakterin formalaşması və assosial davranışların qarşılıqlı təsiri təhlil olunur. Tədqiqat göstərir ki, milli dəyərlərin mənimsənilməsi yeniyetmələrdə psixoloji stabilliyin qorunmasına, özünüidentifikasiya prosesinin möhkəmlənməsinə və sosial adaptasiyanın güclənməsinə şərait yaradır. Əksinə, milli kimlikdən uzaqlaşan yeniyetmələr sosial təcridə, emosional narahatlığa və assosial davranışlara daha çox meylli olurlar. Məqalədə təqdim olunan nəzəri çərçivə və elmi yanaşmalar, yeniyetmələrin milli kimliklərini gücləndirməyə yönəlmiş psixoloji və pedaqoji müdaxilələrin əhəmiyyətini vurğulayır. Araşdırma nəticələri müasir cəmiyyətdə yeniyetmələrin sosial inteqrasiyasının və sağlam psixososial inkişafının təmin olunmasında milli dəyərlərin əhəmiyyətini göstərir.
***Açar sözlər:*** *yeniyetmələr, milli xarakter, milli kimlik, assosial davranış, psixoloji dinamika, sosial adaptasiya*

**Abstract.** This article analyzes the mutual influence of the formation of national character and antisocial behavior in the context of adolescent psychological dynamics. The research findings reveal that the internalization of national values contributes to the preservation of psychological stability, the strengthening of self-identification processes, and improved social adaptation in adolescents. Conversely, adolescents who distance themselves from national identity are more prone to social isolation, emotional instability, and antisocial behaviors. The theoretical perspectives presented emphasize the importance of psychological and pedagogical interventions aimed at reinforcing adolescents' sense of national identity. The study highlights the significance of national values in fostering adolescents' social integration and healthy psychosocial development in modern society.
***Keywords:*** *adolescents, national character, national identity, antisocial behavior, psychological dynamics, social adaptation*

**Аннотация.** В данной статье анализируется взаимовлияние формирования национального характера и асоциального поведения в контексте психологической динамики подросткового возраста. Результаты исследования показывают, что усвоение национальных ценностей способствует сохранению психологической стабильности у подростков, укреплению процесса самоидентификации и улучшению социальной адаптации. Напротив, отдаление от национальной идентичности может привести к социальной изоляции, эмоциональной нестабильности и асоциальным поступкам. Представ-

ленные теоретические подходы подчеркивают значимость психологических и педагогических интервенций, направленных на укрепление национального самосознания подростков. Исследование подчеркивает роль национальных ценностей в обеспечении социальной интеграции и здорового психосоциального развития подростков в современном обществе.

***Ключевые слова:*** *подростки, национальный характер, национальная идентичность, асоциальное поведение, психологическая динамика, социальная адаптация*

Yeniyetməlik, şəxsiyyətin inkişafı və sosial münasibətlərin qurulması baxımından xüsusilə kritik bir dövr olaraq önə çıxır. Bu dövrdə yeniyetmələr, öz kimliklərini tapmağa və cəmiyyətlə əlaqələrini qurmağa çalışırlar. Onların dünyagörüşü, dəyərləri və davranışları ətraf mühitin, sosial təzyiqlərin və mədəni normativlərin təsiri altında inkişaf edir.

Bu məqalənin məqsədi, yeniyetmələrin psixoloji dinamikasında milli xarakter və assosial davranışların qarşılıqlı təsirini araşdırmaqdır. Yeniyetmələr, öz şəxsiyyətlərini və dünyagörüşlərini formalaşdırarkən, fərdi təcrübələr, sosial təsirlər və mədəni normativlər arasında gərgin bir balans tapmağa çalışırlar. Həmçinin, yeniyetmələrin milli kimliklərinə və sosial davranışlarına təsir edən daxili amillərin təhlili, cəmiyyətin gələcək inkişafı üçün əhəmiyyətlidir.

Bu araşdırma həm sosial, həm də psixoloji baxımdan yeniyetmələrdə milli dəyərlərin və deviant (asosial) davranışların inkişafını dərinləşdirməyə çalışacaqdır. Yeniyetmələrdə milli dəyərlər və dəyərlər sistemi, sosial və ailə mühitindən, təhsil sistemindən və sosial şəbəkələrdən gələn təsirlərlə formalaşır. Bu tədqiqat, milli kimliyin inkişafını və assosial davranışların yaranma səbəblərini dərindən analiz etməklə, cəmiyyətin daha güclü və milli dəyərlərlə bağlı olan bir gələcəyini təmin etməyə kömək edəcəkdir.

Milli xarakter, hər bir millətin kollektiv psixologiyasının və sosial təcrübələrinin nəticəsi olaraq, insanların dünyagörüşü, davranış normativləri və adət-ənənələrini əhatə edir. Bu, yalnız fərdi xüsusiyyətlərin deyil, həm də sosial və mədəni ətrafın formalaşdırdığı kollektiv bir xüsusiyyətdir. Yeniyetmələr dövründə milli xarakterin formalaşması, onların öz şəxsiyyətlərini tanımaq və cəmiyyətlə uyğunlaşmaq prosesində mühüm rol oynayır. Yeniyetmələr, həyatlarının bu həssas dövründə yalnız fərdi şəxsiyyətlərini inkişaf etdirmirlər, həm də sosial mühitlə əlaqə quraraq milli kimliklərini aydınlaşdırmağa çalışırlar.

Milli xarakterin formalaşmasında ailə, məktəb və cəmiyyətin rolu olduqca vacibdir. Yeniyetmələrə, xüsusilə də onların həyatının bu mərhələsində milli dəyərlərin mənimsədilməsi və yerli ənənələrin təbliği, davranış modellərinin formalaşmasında mühüm təsir göstərir. Ailə və məktəb mühitləri, onların milli kimliklərini qəbul etmələri və bu kimliklə sosial mədəniyyətdə aktiv rol almaları üçün ilkin təməl yaradır. Lakin, bu təsirlər yalnız sosial mühitin müəyyən etdiyi çərçivə ilə məhdudlaşmır. Cəmiyyətin normativləri və mədəni təzyiqləri də yeniyetmələrin davranışlarını yönləndirir.

Assosial davranışların inkişafı isə bu milli dəyərlər və cəmiyyətin sosial mühitindəki çatışmazlıqlar ilə sıx bağlıdır. Yeniyetmələr, əgər ailə və ya məktəb mühitində düzgün dəstək almasa, öz milli kimliklərini mənimsəməyi çətinləşdirə bilər və nəticədə, bu pozulmuş sosial təcrübələr, onların assosial davranışlar göstərməsinə səbəb ola bilər. Bu assosial davranışlar, cəmiyyətin sosial və mədəni normativlərinə qarşı çıxan, əxlaqi qaydalara zidd hərəkətlər kimi təzahür edir və bu cür davranışlar, milli kimliyin zəif mənimsənilməsindən qaynaqlanır.

Assosial davranışlar, cəmiyyətin sosial və mədəni normalarına zidd davranışlar olaraq, yeniyetmələrin milli kimliklərini formalaşdırma prosesində bir maneə yarada bilər. Yeniyetmələr öz kimliklərini qurarkən, sosial təzyiqlərə məruz qalaraq qeyri-adekvat davranış modelləri inkişaf etdirə bilərlər. Bu da, milli dəyərləri mənimsəməkdə çətinliklər yaşamağa və onların sosial mühitdən uzaqlaşmasına səbəb ola bilər. Bu vəziyyət, yeniyetmələrin psixoloji inkişafını zəiflədir və onların milli kimliklərinə qarşı mənfi təsir göstərir.

Eyni zamanda, assosial davranışlar, yeniyetmələrin sosial mühitdəki əlaqələrini zədələyərək onları cəmiyyətin digər üzvlərindən təcrid edə bilər. Bu təcrid, milli xarakterin formalaşmasını daha da çətinləşdirir, çünki yeniyetmələr öz milli kimliklərini cəmiyyətlə qarşılıqlı əlaqələrdə görməli, bu kimliyi sosial təcrübələr və kollektiv fəaliyyətlər vasitəsilə gücləndirməlidirlər. Lakin assosial davranışlar, bu qarşılıqlı əlaqələri pozur və milli kimliyin mənimsənilməsini zəiflədir.

Yeniyetmələrdə milli xarakterin formalaşması, onların psixoloji dinamikasında vacib bir mərhələdir. Bu dövr, şəxsiyyətin və sosial uyğunlaşmanın əsasını qoyur. Yeniyetmələr, öz şəxsiyyətlərini formalaşdırarkən, həm daxili konfliktlər, həm də sosial təzyiqlər qarşısında bir seçim etməlidirlər. Bu seçimlər, milli dəyərlərə uyğun davranışların təşviqinə yönəlməli və ya, əksinə, assosial davranışlar ilə qarşılaşmalı ola bilərlər.

Milli xarakterin formalaşması, yeniyetmələrdə cəmiyyətə uyğun sosial davranışların inkişafı ilə birbaşa əlaqəlidir. Bu dövrün psixoloji dinamikasında, yeniyetmələrin milli kimliklərini mənimsəmələri, onların özlərinə inamını artırır və sosial münasibətlərində daha çox stabillik əldə etmələrinə kömək edir. Milli xarakterin gücləndirilməsi, onların psixoloji inkişafını müsbət yöndən təsir edərək, sosial mühitdə sağlam və konstruktiv münasibətlər qurmağa şərait yaradır. Yeniyetmələr, öz milli kimliklərini qəbul etdikdə və bu kimliyi cəmiyyətə inteqrasiya etdikdə, daha yaxşı sosial dəstək və emosional sabitlik tapır, bu da onların psixoloji və sosial uyğunlaşma proseslərini asanlaşdırır.

Yeniyetməlik dövrü, şəxsiyyətin formalaşmasında mühüm bir mərhələ olsa da, bu dövrün gətirdiyi daxili və xarici gərginliklər çoxsaylı təhlilləri və psixoloji dəstəyin vacibliyini ortaya qoyur. Yeniyetmələr, öz şəxsiyyətlərini formalaşdırarkən, həm daxili konfliktlər yaşayırlar, həm də xarici sosial təzyiqlərlə üzləşirlər. Daxili konfliktlər, yeniyetmənin öz şəxsiyyətini axtardığı bir dövrdə meydana gəlir. Bu, fərdin öz milli kimliyini qəbul etməsi ilə bağlı olan daxili bir ziddiyyət yarada bilər. Milli kimlik, bəzən fərdi kimliklə çarpışaraq, yeniyetmənin özünü kimlik böhranı içində hiss etməsinə səbəb ola bilər. "Sosial qruplara aid olmaq və onlarla kimlikləşmək, insanın özlük anlayışını, davranışını və sosial uyğunlaşmasını təsir edən əsas insan motivasiyasıdır"[1, s. 32].

Beləliklə, milli kimlik və mədəni dəyərlərin gücləndirilməsi, bu daxili konfliktlərin və sosial təzyiqlərin aradan qaldırılmasına kömək edir.

Milli xarakterin gücləndirilməsi, yeniyetmələrin psixoloji inkişafını bir çox müsbət cəhətdən təsir edir. Milli kimlik, yeniyetmələrin sosial təcrübələrini anlamaqda və mədəniyyətlərarası münasibətlərdə öz mövqelərini tapmaqda onlara rəhbərlik edir. Bu, onların daha sabit və sağlam bir şəxsiyyət inkişaf etmələrinə kömək edir. Yeniyetmələr, milli kimliklərini mənimsədikcə, özlərinə inam hissi qazanır, sosial qruplarla daha müsbət münasibətlər qururlar və ümumilikdə psixoloji cəhətdən sağlam bir inkişaf yolu götürürlər. "Kimliyini aydın və sabit şəkildə formalaşdırmış yeniyetmələr, özlərini kəşf etməyə çalışan və ya etnik qrupları haqqında aydın qərar verməyənlərə nisbətən daha yüksək özünə hörmət və psixoloji rifah səviyyəsinə sahibdirlər" [2, s. 103].

Milli dəyərlərin gücləndirilməsi, eyni zamanda yeniyetmələrin sosial adaptasiya proseslərini də asanlaşdırır. Onlar, öz milli kimliklərini qəbul etdikcə, cəmiyyətlə daha yaxşı inteqrasiya edirlər və fərqli sosial qruplarla sağlam əlaqələr qururlar. Bu, onların emosional sabitliyini artırır və sosial qarşılıqlı əlaqələrdə özünə güvən hissini təmin edir. Bununla yanaşı, milli kimliklərini gücləndirən yeniyetmələr, assosial davranışlardan uzaqlaşır və sosial normalara daha çox uyğunlaşırlar. Milli dəyərlərin mənimsənilməsi, yeniyetmələri cəmiyyətin sosial təzyiqlərindən qoruyur və onların psixoloji inkişafını müsbət yöndən təsir edir.

Milli kimlik və assosial davranışların qarşılıqlı təsiri, yeniyetmələrin psixoloji inkişafında mühüm rol oynayır. Əgər yeniyetmələr öz milli kimliklərini qəbul edərsə, bu, onların sosial adaptasiyalarına müsbət təsir edəcək və assosial davranışların inkişafını önləyəcəkdir. Yeniyetmələrin milli kimlikləri ilə əlaqəli olan dəyərlərin mənimsənilməsi, onların sosial münasibətlərində müsbət dəyişikliklərə səbəb ola bilər. Əksinə, milli kimlikdən uzaqlaşan yeniyetmələr, özlərini cəmiyyətin qalan hissəsindən ayrı hiss edərək, neqativ davranışlara yönələ bilərlər.

Milli xarakterin formalaşması və assosial davranışların qarşılıqlı təsiri, yeniyetmələrin psixoloji və sosial inkişafını şərtləndirən iki əsas amildir. Bu amillərin qarşılıqlı əlaqəsi, yeniyetmələrin şəxsiyyətinin və davranışlarının inkişafında mühüm rol oynayır. Yeniyetmələr, öz milli kimliklərini qəbul etdikdə, həm psixoloji, həm də sosial baxımdan daha güclü və dayanıqlı bir şəxsiyyət inkişaf etdirirlər. Milli dəyərlər və kimliklə əlaqəli dəyərlərin mənimsənilməsi, yeniyetmələrin özlərini cəmiyyətin bir hissəsi olaraq hiss etmələrini təmin edər və onlara

qarşılıqlı əlaqələrdə müsbət istiqamət verər. Bununla yanaşı, milli kimliyin gücləndirilməsi, sosial adaptasiya və müsbət davranışların inkişafı üçün əsas zəmin yaradır.

Eyni zamanda, assosial davranışların qarşısını almaq və yeniyetmələrin psixoloji sağlamlığını dəstəkləmək üçün cəmiyyətin və ailənin rolunun vacibliyi nəzərə alınmalıdır. Assosial davranışlar, adətən, ətraf mühitdəki sosial təzyiqlər, ailə və məktəb mühitindəki çatışmazlıqlar və sosial ədalətsizliklərlə əlaqədar olaraq yaranır. Yeniyetmələrin öz milli kimliklərini qəbul etmələri, onların bu davranışlara meyllərinin azaldılmasına səbəb ola bilər. Bunun üçün, sosial dəstək mühiti yaradılmalı, yeniyetmələrin psixoloji dəstəyi təmin edilməli və onlara öz kimliklərini dərk etməyə kömək edilən proqramlar həyata keçirilməlidir.

Bununla yanaşı, assosial davranışların qarşısını almaq, yalnız sosial mühitin yaxşılaşdırılması ilə deyil, həm də yeniyetmələrin şəxsi inkişaflarına təsir edəcək psixoloji təlim və dəstək sistemlərinin yaradılması ilə mümkündür. Yeniyetmələrə özlərini daha yaxşı tanımağa, öz şəxsiyyətlərini gücləndirməyə və sosial məsuliyyət daşımağa dair təlimlər verilərək, onların milli kimliklərini mənimsəmə və cəmiyyətlə inteqrasiya etmə prosesləri dəstəklənə bilər.

Bütün bu amillər, yeniyetmələrin psixoloji sağlamlığını və sosial inkişafını gücləndirmək üçün bir araya gəlməli və kollektiv bir yanaşma ilə reallaşdırılmalıdır.

Beləliklə, yeniyetmələr, milli kimliklərini daha möhkəm bir şəkildə formalaşdıraraq cəmiyyətə daha sağlam və konstruktiv bir şəkildə inteqrasiya ola bilərlər. Bu, yalnız onların şəxsi inkişaflarına deyil, eyni zamanda cəmiyyətin ümumi rifahına da müsbət təsir göstərəcəkdir

**Problemin elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, yeniyetmələrin psixoloji dinamikası çərçivəsində milli xarakter və assosial davranışlar arasındakı qarşılıqlı təsir ilk dəfə kompleks şəkildə təhlil olunur. Bu qarşılıqlı təsir həm fərdi inkişafın psixoloji aspektləri, həm də milli kimliyin sosial psixoloji strukturları ilə əlaqələndirilərək izah edilir. Tədqiqatda yeniyetmələrin daxili psixoloji dəyişkənliyi ilə milli dəyərlərin mənimsənilməsi arasındakı əlaqələr yeni prizmadan araşdırılır.

**Problemin aktuallığı.** Müasir dövrdə yeniyetmələrin psixoloji inkişafı və sosiallaşması, müxtəlif mədəni və texnoloji təsirlər fonunda yeni problemlərlə üzləşməkdədir. Xüsusilə milli xarakterin formalaşmasına təsir edən amillər və assosial davranışların yayılması psixoloji və pedaqoji cəhətdən ciddi tədqiqat tələb edir. Qloballaşma, sosial media və ailə institutu kimi faktorların təsiri altında formalaşan yeniyetmə davranışları milli dəyərlərin qorunması və ictimai harmoniyanın təmin olunması baxımından aktuallıq kəsb edir.

**Problemin praktik əhəmiyyəti.** Tədqiqatın nəticələri pedaqoji-psixoloji sahədə çalışan mütəxəssislər üçün praktiki əhəmiyyət kəsb edir. Yeniyetmələrlə işləyən müəllim, psixoloq və sosial işçilərin bu nəticələrdən istifadə edərək milli dəyərləri təşviq edən və assosial davranışların qarşısını alan strategiyalar hazırlaması mümkündür. Eyni zamanda, valideynlər və tərbiyəçilər üçün praktik tövsiyələr və davranış modelləri təqdim olunmaqla yeniyetmələrin sağlam psixoloji və milli inkişafı təmin oluna bilər.

**Ədəbiyyat:**


1. Vignoles, V. L., et al. (2006). Beyond Self-Esteem: Social Identity and the Need for Positive Social Relationships. Personality and Social Psychology Bulletin, 32(3), 313-327.
2. Phinney, J. S. (1990). Ethnic Identity in Adolescents and Adults: Review of Research. Psychological Bulletin, 108(3), 499–514.
3. Baumeister, R. F., & Vohs, K. D. (2007). Self and Identity.
4. Seyidov, S.İ. və Həmzəyev M.Ə. Psixologiya. Ali pedaqoji məktəblərin bakalavr pilləsi tələbələri üçün dərslik. -Bakı: A.R.Təhsil Problemləri İnstitutu, -2007. - 626 s
5. Əliyev, R.I. Ethnopsychology: Globalization and nationalism. -Bakı: Nurlan, -2007. -180 p.


**Redaksiyaya daxil olub:** 17.09.2025.